AzerGold

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Korporativ Sosial Məsuliyyət Komitəsinin

# İllik Hesabatı

**BAKI 2019**

## MÜNDƏRİCAT

**GİRİŞ** ..... 3
Uzunmüddətli layihələr ..... 4
Qısamüddətli layihələr ..... 5
Ekoloji layihələr ..... 4
İşlə təmin etmə və maddi yardım ..... 5

# GİRİŞ

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilib. "AzerGold" QSC ölkə ərazisində qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, qiymətli və nəcib metalların hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət əlvan filiz yataqlarının öyrənilməsi, kəşfiyyatı, işlənilməsi və idarə olunması fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində həyata keçirilir.

"AzerGold" QSC-nin korporativ sosial məsuliyyət siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, "Layihələrin maliyyələşdirilməsi zamanı ekoloji və sosial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarəçiliyi üzrə Ekvator Prinsipləri", "BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri"nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

Cəmiyyətin sosial məsuliyyət siyasəti əsasən aşağıdakı prioritet istiqamətləri əhatə edir:

- Yerli əhali və icmalarla iş
- Ətraf mühitin mühafizəsi
- Əlverişli əmək şəraitinin formalaşdırılması və iş yerində insan hüquqlarının müdafiəsi

Cəmiyyətin Korporativ Sosial Məsuliyyət siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir. Komitə tərəfindən sosial məsuliyyət siyasətinin istiqamətləri üzrə icrası 1 il və daha artıq müddət tələb edən və ya hər il dövri olaraq keçirilməsi planlaşdırılan uzunmüddətli layihələr icra edilir.

# UZUNMÜDDƏTLİ LAYİHƏLƏR

## “Mədəni irsə töhfə: Çovdar nekropolu” layihəsi

2019-cu ilin fevral ayında “AzerGold” QSC tərəfindən 3-cü topaqələviləşdirmə sahəsinin tikintisi zamanı qədim məzarlar aşkar edilmişdir. Vaxt itkisi və maliyyə baxımından əlavə risklər yaratmasına baxmayaraq, ərazidə tikinti işləri dərhal dayandırılmış, müvafiq qurumlara faktla bağlı məlumat verilmiş və Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əldə edilmiş razılığa əsasən, cari ilin may ayından etibarən ərazidə arxeoloji qazıntılara başlanmışdır. 5 ay davam edən arxeoloji qazıntılar zamanı aşkarlanan 156 qəbirdən 6000-dən çox eksponat tapılmışdır.



Maddi-mədəni nümunələr mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmişdir. Alimlərin qənaətinə əsasən, sözügedən qazıntılar arxeoloji materialların zənginliyi ilə diqqəti cəlb edir və qədim insanların təsərrüfat həyatı, ideoloji baxışları, sosial və ictimai quruluşları haqda geniş məlumat almağa imkan verəcək ilk kompleks arxeoloji tədqiqatdır. İlkin analizə əsasən, Çovdar filiz emalı sahəsində aşkarlanan məzarlıq son tunc-erkən dəmir dövrünə (e.ə.II min.sonu – I min. əvvəli) aid edilir. Bu qəbirlərin analogiyasına Respublikamızın Qərb bölgələrində, Qarabağda, Naxçıvan Muxtar Respublikası ərazisində rast gəlinir. Arxeoloji materiallar son tunc – erkən dəmir dövründə geniş yayılmış Xocalı-Gədəbəy mədəniyyətinə aiddir. Köçmə yaylaq maldarlığı ilə məşğul olan Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının qonşu ərazilərdə yaşayan tayfalarla, hətta uzaq Aralıq dənizi sahilləri və Hind okeanı ətrafı ilə iqtisadi-mədəni əlaqələri mövcud olub.

Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən müvafiq laborator analizlərin aparılması vasitəsi ilə aşkarlanan artefaktların tərkibinin müəyyən edilməsi nəzərdə tutulub ki, bununla da qədim insanların hansı ərazilərlə və ölkələrlə ticari əlaqələrə malik olduğu və bu kimi digər detallı məlumatlar əldə ediləcək. Bununla yanaşı, tapıntıların daha geniş öyrənilməsi məqsədilə bu sahədə zəngin təcrübəsi olan Heydər Əliyev Fondunun dəstəyi ilə müvafiq tədbirlər planı hazırlanıb. Plana əsasən, Fondunun dəstəyilə qəbirlərdən aşkarlanan sümük nümunələrinin beynəlxalq təcrübə əsasında izotop və radiokarbon analiz üçün xarici laboratoriyalara göndərilməsi ilə bağlı müvafiq işlər görülür. Bu tədqiqatlardan sonra qəbirlərin dəqiq tarixi, dəfn olunan insanların ölüm səbəbləri, qida rasionu, təsərrüfat həyatı, iqtisadi münasibətləri müəyyən ediləcək.




Tapıntıların mühafizəsi və müvafiq tədqiqatların aparılması üçün görülən işlər 2019-cu il 28 noyabr

tarixindən ictimaiyyətə təqdim edildi. Heydər Əliyev Fondunun təşəbbüsü, BP Azərbaycan, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti və Avstriyanın “Atelier Erich Pummer” şirkətinin təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbir ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Tədbir vasitəsi ilə layihə haqqında məlumat 100-dən çox yerli və xarici qonağa çatdırılmışdır. Qazıntılar zamanı aşkarlanmış maddi-mədəni irs nümunələrindən ibarət xüsusi ekspozisiya Daş Salnamə muzeyində sərgilənmişdir.

“Mədəni irsə töhfə: Çovdar nekropolu” layihəsinin icrasıyla aşağıdakı məqsədlərə nail olunmuşdur:

- Azərbaycanın dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri olmasının bir daha elmi dəlillərlə sübut olunması;
- Son tunc-erkən dəmir dövrünə aid zəngin tarixi-elmi məlumatların əldə edilməsi;
- Arxeoloji muzey fondunun yeni materiallarla zənginləşdirilməsi;
- Şirkət və sənaye müəssisələrinin maddi - mədəni irsi qorumağa təşviq edilməsi;
- Ölkəmizin tarixi irsinin aşkarlanmasına dəstək və onun qorunub gələcək nəsillərə çatdırılması;
- Cəmiyyətdə tarixi keçmişimizə qarşı həssaslığın təbliğ olunması.

## QISAMÜDDƏTLİ LAYİHƏLƏR

### Kiçik və orta aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası üzrə təlim layihəsi

Azərbaycan iqlim dəyişikliyinin sürətlənməsinə səbəb olan qazların emissiyasına görə əhəmiyyətli təsirə malik olmasa da, iqlim dəyişikliyinin doğurduğu mənfi təsirlərə qarşı həssas olan ölkələr qrupuna daxildir. Şirin su ehtiyatlarının azlığı, ölkənin müəyyən hissəsinin sahilyanı ərazilərdə yerləşməsi və nəhayət ölkədə güclü aqrar təsərrüfat ənənələrinin olması, habelə böyük aqrar sənaye potensialı, Azərbaycanı iqlim dəyişikliyinin nəticələrinə qarşı preventiv tədbirlər almağa və bu istiqamətdə müvafiq siyasət formalaşdırmağa sövq edir.




Bu məqsədlə 11 – 14 aprel və 19 – 20 iyun 2019-cu il tarixlərində “AzerGold” QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi tərəfindən Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində “Fərdi aqrar təsərrüfatlarının iqlim dəyişikliyinə adaptasiyası” mövzusunda təlim təşkil edilmişdir. İcra edilən layihə ilə Azərbaycan Respublikasının iqlim dəyişikliyinə həssas,

həmçinin əkinçilik ənənələrinin daha yaxşı inkişaf etdiyi zonalarında, yəni Gəncə-Qazax, Aran və Lənkəran iqtisadi rayonlarından 100 nəfərə yaxın kiçik və orta aqrar təsərrüfat sahiblərinin iqlim dəyişikliyinə adaptasiya edilmə üzrə müasir *elmi, hüquqi* və *iqtisadi metodlar* barədə məlumatlandırılması məqsədilə Bakıda və Naxçıvan Muxtar Respublikasında xüsusi təlimə cəlb edilmişdir. "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası" mövzusunda ümumilikdə 6 gün davam edən 2 təlim təşkil edilmişdir. Təlimin hədəfləri iqlim dəyişikliyinin təsirlərinə məruz qalan təsərrüfatların effektiv idarə olunması və kənd təsərrüfatı sahəsində iqlim dəyişikliyinə adaptasiya probleminin həllinə yönəlmişdir. Əsas məqsədləri iqlim dəyişikliyi zəminində torpaq idarəçiliyinə dəstək, kənd təsərrüfatının məhsuldarlığını daha da artırmaq, regionlarda əhalinin sosial rifahını daha da yüksəltmək, cəmiyyətin diqqətini iqlim dəyişikliyi problemini yönəltmək və BMT-nin "Dayanıqlı İnkişaf üzrə Qlobal Hədəflər 2030"strategiyasına töhvə verməkdən ibarət olan təlimin keçirilməsi ilə aşağıdakı nəticələrə nail olunmuşdur:

- Sahibkarlar iqlim dəyişikliyinə məruz qalan təsərrüfatlara qanunvericilikdə nəzərdə tutulan güzəştlər haqqında praktik biliklər əldə etdilər
- Sahibkarlar iqlim dəyişikliyinə məruz qalan təsərrüfatların idarə edilməsi vərdişlərinə yiyələndilər
- Sahibkarlar aqrar sahədə innovasiyalarla tanışlıq imkanından yararlandılar
- Bu sahədə ixtisaslaşan 15 dən çox məruzəçinin çıxışı dinlənildi
- İşgüzar cəmiyyətin diqqəti iqlim dəyişikliyi probleminə yönəldildi
- Müxtəlif iqtisadi rayonları təmsil edən fərdi sahibkarlar arasında kommunikasiya platforması yarandı

Qeyd edək ki, "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliklərinə adaptasiyası" mövzusundakı təlim layihəsi BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 Dayanıqlı İnkişaf Məqsədlərinə daxil olan iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə məqsədi əsas götürülərək müvafiq nominasiya üzrə "Milli KSM 2019" mükafatına layiq görülüb. "AzerGold" QSC "Milli KSM mükafatı"na layiq görülən ilk və yeganə dövlət şirkətidir.

## Çaykənd kəndinə yeni su borusunun çəkilməsi

2019-cu ilin aprel ayında Daşkəsən rayonunun Çaykənd kəndinin sakinləri kənddə mövcud köhnə su xəttinin bərpa edilməsi məqsədi ilə "AzerGold" QSC-yə müraciət ünvanlamışdır. Müraciət araşdırılaraq Cəmiyyət tərəfindən su xəttinin bərpa edilməsi haqda müvafiq qərar qəbul edilmişdir. Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi ilə içməli su mənbəyinin tərkibi laboratoriyada yoxlanılaraq həmin mənbədən Çaykənd kəndinə 1600 metr uzunluğunda yeni su borusunun çəkilməsi təmin edilmişdir.



2019-cu ilin 21 avqust tarixində Çaykənd kəndində yeni bulağın istifadəyə verilməsi münasibəti ilə “AzerGold” QSC-nin nümayəndələri və kəndlilər arasında görüş keçirilmişdir. Daşkəsən Rayon İcra Hakimiyyəti nümayəndələrinin də iştirak etdiyi görüşdə kənd sakinləri “AzerGold” QSC tərəfindən bölgədə həyata keçirilən dəstək tədbirləri ilə bağlı öz minnətdarlıqlarını bildirib, yeni su xəttinin çəkilişi ilə kənddə mövcud su probleminin tamamilə həll olunduğunu qeyd ediblər.

## EKOLOJİ LAYİHƏLƏR

“AzerGold” QSC-nin ekoloji siyasətinə uyğun olaraq kəşfiyyat, hasilat və emal prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsinə ciddi-cəhdlə çalışılır. Monitorinq proqramının tələblərinə müvafiq olaraq mütəmadi olaraq sahələrdə toz ölçmə işləri həyata keçirilir, torpaq, su hövzələri və sututarlarından götürülən nümunələr əsasında təhlillərin aparılır. İstehsal prosesi nəticəsində yaranan bütün növ tullantılar qanuna müvafiq şəkildə idarə olunur.

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti ekoloji siyasətinin davamı olaraq 24 dekabr 2019-cu ildə IDEA İctimai Birliyinin təşəbbüsü ilə məişət tullantılarının çeşidlənməsi üzrə layihəyə start verib. Layihə çərçivəsində Cəmiyyətin Çovdar Filiz Emalı Sahəsində (ÇFES) tullantıların çeşidlənməsinə başlanılıb. Belə ki, “AzerGold” QSC ilə “Az.Ekol.” MMC arasında imzalanan müqaviləyə əsasən ÇFES-də istifadə olunmuş, yararsız pet şüşələri, kağız, karton, plastik tullantıları üçün xüsusi toplama qutuları yerləşdirilib. Sahədə çeşidlənib toplanan tullantılar utilizasiya üçün sözügedən şirkətə təhvil verilərək təkrar emala yönləndiriləcək.

Məişət tullantılarının ətraf mühitə təsirinin mimumuma endirilməsi, istifadəyə yarassız plastik qabların yığımı və çeşidlənməsi qaydaları ilə tanışlıq məqsədilə ÇFES-də informativ təlim keçirilib. Tədbir çərçivəsində ərazidə çalışan işçilərə tullantıların çeşidlənməsinin ətraf mühitə mənfi təsirlərin azaldılmasında rolu, tullantıların təkrar emala yönləndirilməsi üçün tələb olunan qaydalar və bu kimi mövzularda təlimatlandırılıblar.

Beynəlxalq standartlar əsasında fəaliyyət göstərən “AzerGold” QSC 2019-cu ildə istehsalat nəticəsində formalaşan civənin qanunamüvafiq şəkildə, ətraf mühitə və insan sağlamlığına zərər vurmadan utilizasiya edilməsi istiqamətində zəruri addımlar atıb. Civənin satışı məqsədilə ilk olaraq yerli bazar araşdırılıb və tələbatın olmadığından sadalanan şərtlər çərçivəsində çoxsaylı xarici şirkətlərlə müvafiq danışıqlar aparılaraq bütün tələblərə cavab verən və daha sərfəli şərtlər təklif edən, həmçinin KYC (Know Your Customer), hüquqi və texniki audit (“due diligence”) şərtlərinə cavab verən Sinqapurun “Asia Mercury” şirkəti ilə müqavilə imzalanmışdır. Nəticədə “AzerGold” QSC Çovdar filiz emalı sahəsində istehsalat prosesi zamanı tullantı qismində yaranan 1163 kiloqram həcmində civə partiyasını Sinqapura uğurla ixrac edərək, həm ətraf mühitin mühafizəsinə öz töhfəsini vermiş, həm də 40 000 manata yaxın məbləğdə mənfəət əldə etmiş oldu. Baş tutan ixrac, bu prosesi beynəlxalq səviyyədə tənzimləyən, beynəlxalq Minamata Konvensiyasının tələbləri nəzərə alınmaqla reallaşdırılıb. Qeyd edək ki, Minamata Konvensiyasına əsasən civə tullantılarının insan sağlamlığı və ətraf mühitə təsirini önləmək məqsədilə sistemli tədbirlər həyata keçirilməlidir. Ətraf mühiti qorumaq, ekosistemi mühafizə etmək üçün mütəmadi olaraq ağacəkmə aksiyaları keçirilir,

yaşıllaşdırma tədbirləri görülür. Bu tədbirlərin nəticəsində 8 minə yaxın ağac və kol bitkiləri əkilmişdir. Bu tədbirlərin davamı olaraq, Cəmiyyət "Regional İnkişaf" İctimai Birliyi və İDEA İctimai Birliyi ilə birgə əməkdaşlıq çərçivəsində ətraf mühitin mühafizəsi istiqamətində 500 kq-dan çox palıd qozası tədarük edilib. Gələcəkdə Çovdar Filiz Emalı sahəsində tingliyin salınması üçün istifadə olunması üçün qozalardan ayrılan 100 mindən çox toxum aqrotexniki qaydalara uyğun olaraq əkilib və əkim prosesi davam etdirilir. Qeyd edək ki, yetişdiriləcək palıd tingləri ağacəkmə aksiyalarında istifadə edilərək təqribən 40 hektara yaxın ərazinin yaşıllaşdırılmasına imkan yaradacaq.

## İŞLƏ TƏMİN ETMƏ VƏ MADDİ YARDIM

Komitəyə mütəmadi olaraq işə düzəlmə və maddi yardıma dair vətəndaş sorğuları daxil olur. Cəmiyyətdə işlə təmin olunma sorğuları icraya yönəldilərkən, sorğu sahiblərinin sosial həssas qrupa daxil olması və bilavasitə mədən fəaliyyətinin həyata keçirildiyi regionlarda məskunlaşması faktorları əsas kriteriya olaraq qəbul edilmişdir. Bu meyarları nəzərə alaraq komitənin fəaliyyətə başladığı dövrdən etibarən işlə təminata dair daxil olan müraciətlərin 13.5%-i təmin edilmişdir.

Komitəyə mütəmadi olaraq müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqəli sorğular daxil olmuşdur. Bu sorğuların 80%-i müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilmiş və müraciətçilərə ölkə üzrə orta aylıq əmək haqqı nəzərə alınmaqla birdəfəlik maddi yardım edilmişdir.